**Azərbaycan Milli Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutu**

Elmi –texniki informasiya şöbəsinin 2018 cı il üçün yarımillik

**Hesabatı**

Hesabat dövründə şöbədə aşağıdaki işlər görülmüşdü:

Riyaziyyat və Mexanika İnstitutun əməkdaşlarının elmi işlərinin kataloquna 160 məqalənin, kitabların kartları yerləşdirilib, o cümlədən yerli və xaricdə çap olunmuş məqalələr, tezislər, kitab və monografiya. Şöbəyə daxıl olmuş 12 dissertasiya (5 doktorluq və 7 namizədlik) və avtoreferatlar kataloqa yerləşdirilmişdir.

Hesabat dövründə şöbə Z.İ. Xəlilovun "Основы функционального анализа" kitabının Moskvada 2-ci nəşrinin çapı ilə bağlı müəyyən korrektura işləri görmüşdülər (Məhərrəmova Xumar, Ağakişıyeva Nərminə, Musayeva Təranə).

RMİ AMEA- nın qərarına əsasən **18 – 27 may 2018**-ci il Kazan şəhərinin, Kazan Federal Universitetində və Moskva şəhərində "URSS" nəşriyyatında ezamiyyətdə olmuşam. Ezamiyətin məqsədi **18 – 24 may 2018**- cı ildə Kazan Federal Universitetinın bazası əsasında keçirilimiş "Региональная конференция Международной ассоциации ISATT, Международный форум по педагогическому образованию IFTE – 2018, Заседание Координационного Совета в области образования «Образование и педагогические науки» и Федерального учебно-методического объединения в сфере высшего образования " adlı Beynəlxalq pedaqoji təhsil forumunda və Koordinasiya Şurasının iclasında iştirak etmişəm.
Konfrans zamanı müxtəlif seksiyalarda, riyaziyyat və təhsil sistemi ilə bağlı Şura iclasında iştrak etmişəm.

**19 may 2018** –ci il Kazan Federal Universitetinın bazası əsasında keçirilmiş "Региональная конференция Международной ассоциации ISATT" iştirak etdim.

**20 may 2018**- ci il KFU-nun Yelabuqa İnsitutunda (Yelabuqa şəhəri Tatarstan Respublikası) olmuş, insitutun elmi-texniki bazası və tarixi ilə tanış olmuş, institutun direktoru dos. Mezon Y.Y., və həmin insitututunun dosenti Gilmulin N.F. ilə (riyaziyyat tarixi üzrə ixtisasçı) görüşlərim oldu. İnstitutun laboratoriyalarının müasir avadanlıqlarla və texnoloğiyalarla təmin edilməsi məni məmnun etdi. 75 min əhalisi olan bu kiçik şəhər əsl muzeylər şəhəridir. İmkandan istifadə edib, həmin muzeylərlə tanış oldum.

**21 may 2018-ci** ildə Kazan Federal Universitetinın bazası əsasında keçirilimiş "Заседание Координационного Совета в области образования «Образование и педагогические науки» и Федерального учебно-методического объединения в сфере высшего образования" iclasinda iştirak etdim və aşağida adları geyd olunan

alimlərlə, elmi araşdirmalar və təhsil sahəsində söhbətim oldu : Moskva Dövlət Pedaqoji Universitetinin rektoru, Rusiya Təhsil Akademiyasının müxbir üzvü , professor Lubkov A.V. (Moskva, Rusiya), Moskva Dövlət Pedaqoji Universitetinin prorektoru, Riyaziyyat İnformatika İnstitutun direktoru, professor Karakozov S.D. (Moskva, Rusiya), Moskva Dövlət Pedaqoji Universitetinin prorektoru, professor Trubina L.A. (Moskva, Rusiya) , həmin insitutun tədris - metodiki işlər şöbəsinin rəisi dosent Yeqorova Y.B.. Moskva Dövlət Pedaqoji Universitetinin rektoru, Rusiya Təhsil Akademiyasının müxbir üzvü , professor Lubkov A.V. AMEA- nın Riyaziyyat və Mexanika İnstitutu ilə memorandum bağlanmasına müsbət fikir bildirdi.

Koordinasiya Şurasından sonra **21 may 2018 –ci ildə 15:30** Kazan Federal Universitetinin Riyazi analiz kafedrasının müdiri, Tatarstan EA müxbir üzvü , fizika-riyaziyyat elmləri doktoru, professor S.R. Nasirovla görüşdüm və riyazi analiz kafedrasının kurs işlərinin müdafiəsində iştirak etdim. Həmin gün "Предшественники современной математики Азербайджана" (müəlliflər M.C. Mərdanov, R.M. Aslanov) adlı kitabı KFU-nun N.İ. Lobaçevskiy adına Elmi kitabxanasına hədiyyə etdim.

**22 may 2018-ci** il forumun plenar iclasının açılışında istirak etdim və həmin gün «ЗАДАЧНИКИ ПО АРИФМЕТИКЕ ШКОЛ АЗЕРБАЙДЖАНА КОНЦА XIX НАЧАЛА XX ВЕКА» (müəlliflər M.C. Mərdanov, R.M. Aslanov) adlı məruzə ilə forumun 43-cü seksiyasında (Seksiyanın rəhbəri (moderator)Texas Universitetinin professoru M.A. Çoşanov(ABŞ), Kazan Federal Universitetinin kafedra müdiri prof. L.R. Şakirova (Kazan, Rusiya), proqramda s.59) çıxış etdim məruzə ətrafında geniş diskussiya oldu, mövzunun aktuallığı qeyd olunmaqla riyaziyyat tarixinin öyrənilməsi vacib sayıldı. 2**3 may 2018-ci** ildə 5-ci seksiyada (Seksiyanın rəhbəri (moderator) A.M. Qayfutdinov(Naberejni-Çelnı Dövlət, Pedaqoji Universiteti (Naberejni-Çelnı, Rusiya), proqramda s.68-69)) « ЗАДАЧНИКИ ПО АРИФМЕТИКЕ ШКОЛ АЗЕРБАЙДЖАНА КОНЦА XIX НАЧАЛА XX ВЕКА» (müəlliflər M.C. Mərdanov, R.M. Aslanov) adlı məruzə ilə çıxış etmişəm. Məruzə çox yüksək səviyyədə qarşılandı və geniş müzakirə olundu. Forumun təşkilat komitəsi tərəfindən bu məruzəyə görə və konfransda fəal iştirakıma görə mənə sertifikat verilib. Həmin gün Kazan Federal Universitetinin Filologiyada təhsil texnologiyaları və informasiya sistemləri kafedrasının müdiri, pedaqoji elmlər doktoru, dos. L.L. Salexova ilə görüşmüş və onunla birgə apardığmız işi müzakirə etmiş, aldığmız nəticəni məqalə şəklində çapa təqdim etməyə qərara aldıq. **23 may 2018** nəşriyyat işi ilə bağlı Moskva şəhərinə getmişəm. **24-27 may 2018** –ci il tarxlərində AMEA –nın Riyaziyyat və Mexanika İnstitutunun müvafiq müqaviləsinə əsasən Moskvada "URSS" nəşriyyatında çap olunmuş akademik Z.İ. Xəlilovun "Основы функционального анализа" kitabını mətbəədən götürülməsi və Bakıya gətirilməsi ilə bağlı müvafiq sənədlərin tərtib edilməsi işlərini başa çatdırdım. **26**

**may 2018**-ci il Moskva Dövlət Universitetinin professoru, fizika-riyaziyyat elmləri doktoru N.V. Şamolinlə görüşmüş diferensial tənliklərə aid dərs vəsaitlərinin bəzi metodik və praktik cəhətlərini müzakirə etmişəm. **27 may 2018-ci** il akademik Z.İ. Xəlilovun "Основы функционального анализа" kitabını bütün nüsxələrini Moskvadan Bakıya Riyaziyyat və Mexanika İnstitutuna gətirmişəm. İnstitutun Elmi Şurasının qərarına əsasən (protokol № 5, 29 may 2018) reestr tərtib edilmişdir. Z.İ. Xəlilovun «Основы функционального анализа» kitabı kitabxanalara və riyaziyatçı alimlərə verilib. Z.İ. Xəlilovun "Основы функционального анализа" kitabının 2-ci nəşrinin sonunda Z.İ. Xəlilovun həyat və elmi faliyətinə həsr edilmiş (**"Роль Заида Исмаил оглы Халилова в развитии математической науки")** adlı geniş məqalə verilmişdir səh. 232- 246.

Hesabat dövründə R. M. Aslanovun çap olunmuş məqalələri:

1. **Р.М. Асланов. Сочетание традиционного электронного обучения при преподавании математического анализа в педагогическом вузе** Материалы II Международной научно-практической конференции Инновационные технологии в медиаобразовании (29, 30 мая 2017 г)., **Санкт-ПетербургСПбГИКиТ , 2018,**стр. 98-103 (г. Санкт-Петербург, Россия)**(соавтор Игнатова О.Г.).**
2. **Р.М. Асланов. Первая женщина, получившая докторскую степень.** Материалы Международной научно-практической конференции студентов, аспирантов и преподавателей «Современные проблемы подготовки специалистов для предприятия атомной отрасли» 10 февраля 2018, **Димитровградский инженерно-технологический институт –филиал «МИФИ»,** стр. .. (г. Димитровград, Россия) **(в печати) (соавтор Рустамов В.Д.).**
3. **Р.М. Асланов. Великая женщина- Лиза Мейтнер ( к 140 летию со дня рождения)/** Современный учитель дисциплин естественно научного цикла: сборник материалов Международной научно-практической конференции (г. Ишим; 16 февраля 2018)- Ишим: Изд-во ИПИ им. П.П. Ершова (филиал Тюм ГУ) 2018, 280 стр. , стр. 28-37 (г.Ишим, Россия) **(соавтор В.Д. Рустамов).**
4. **Р.М. Асланов. Великий учитель, математик, реформатор Михаил Григорьевич Фихтенгольц** *(к 130-летию со дня рождения)* Труды Международной научно-практической конференции 15-16 марта, 2018г. Профессионализм педагога: Сущность, содержание, перспективы развития . 2018, часть 2 , стр.395 – 403 (г. Москва, Россия) **(соавтор Марданов М.Д.).**
5. **Р.М. Асланов. Любовь к математике – Соломон Григорьевич Михлин** (к 110 летию со дня рождения) Проблемы теории и практики обучения математике. Сборник научных работ представленных на

Международную научную конференцию «71 Герценовские чтения» Санкт Петербург 17-19 апреля РГПУ им. Герцена, (г. Санкт-Петербург, Россия) 2018, стр. 7-13**(соавторы Марданов М.Д., Гасанова Т.Х.).**

6. **Р.М. Асланов. Замечательный математик, физик, педагог, энциклопедист – Жан Батист Фурье** (к 250 – летию со дня рождения) Труды Артёмовских чтений, Пензенский государственный университет, Пенза 2018, стр… (г. Пенза, Россия).
7. **Р.М. Асланов. Задачники по арифметике школ Азербайджана конца XIX начала XX века.** Сборник научных трудов IV Международного форума по педагогическому образованию и региональной конференции ISATT, часть 2, Казань 2018, стр. 12- 18 (г. Казань, Россия) **(соавтор Марданов М.Д.).**
8. **Р.М. Асланов. Эпоха просвещения: Мария Гаэтана Аньези** . Вестник Елецкого государственного университета. – вып. 39: Серия «Педагогика».( История и теория математического образования).- Елец: ЕГУ им. И.А. Бунина, 2018 – 171 стр. стр. 14-21 (г. Елец, Россия).
9. **Р.М. Асланов. Заид Исмаил оглы Халилов - основоположник современной математической школы в Азербайджане** AMEA-nın xəbərlər məcmuəsi – mart 2018, cild 5 No.1, səh. 46-52 **(соавтор М.Д.Марданов).**
10. **Р.М. Асланов. Математик, механик, инженер - ПОНСЕЛЕ Жан Виктор (к 230 летию со дня рождения).** Материалы IV Международной научно-практической конференции «Актуальные проблемы математики и информатики: теория, методика, практика» 19-21 апреля 2018 года, Елецкий государственный университет им. И.А. Бунина (г. Елец, Россия), стр…. **(соавтор В.Д. Рустамов).**

AMEA Rəyasət Heyətinin 14 fevral 2018-ci il tarixli qərarı ilə professor R.M. Aslanov elmi bilik və nailiyyətlərin populyarlaşdırılması sahəsində səmərəli fəaliyyətinə, o cümlədən riyaziyyat elminin təbliğinə həsr olunmuş elmi və elmi-populyar əsərlərinə görə AMEA Rəyasət Heyətinin mükafatı və diplomı ilə təltif edilmişdir.

R.M. Aslanovun aşağıda qeyd olunan kitabları:

1. Асланов Р.М.. Ли О.В. Мурадов Т.Р. Математический анализ (краткий курс)
2. Асланов Р.М, Нижников А.И., Муханова А.А., Муханов С.А., Мурадов Т.Р. Высшая математика (задачник). Книга из 5 частей: Часть V.I

16-19 mart 2018-ci il tarixdə Parisdə (Fransa) keçirilən 38-ci LIVRE PARIS kitab salonunda nümayiş etdirilmişdi.

Şöbənin müdiri R.M. Aslanov «Вестник Елецкого государственного университета» им. И.А. Бунина . –Серия «Педагогика».( История и теория математического образования) (г. Елец, Россия).- jurnalının redaksiya heyətinin üzvü seçilmişdir.

Hesabat dövründə R.M. Aslanov r.ü.e.d., prof. M.M. Səbzəliyevin və f.-r.e.n., dos. İ.M. Səbzəliyevanın "Xətti cəbr və riyazi analiz" adlı dərs vəsaitinin çap olunmasına rəy vermişdir. Şöbənin müdürü R.M. Aslanov İnstitutun Elmi Şurasında, İnstitutun Elmi və Optimal idarəetmə şöbəsinin seminarlarında iştirak etmişdir.

Hesabat dövründə şöbədə planlaşdırılmış bütün işlər tam yerinə yetirilmişdir.

**Elmi - texniki informasiya şöbəsinin müdiri** **prof. R.M. Aslanov**